# Qərbin sülhə mane olan "binokl diplomatiyası"

**2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində məğlub olan, ordusunun yarısı fərari olan, yarısı yerlə yeksan edilən, nəticədə ağ bayraq qaldıraraq kapitulyasiya aktına qol çəkən Ermənistan gah Fransanın, gah Avropa Şurası Parlament Assambleyasının (AŞPA), gah da Avropa İttifaqı (Aİ), yeri gələndə Amerika, Böyük Britaniya və digər dövlətlərin təhriki ilə müxtəlif bəhanələrlə sülh sazişinə qol çəkməkdən yayınır.**

Görünən odur ki, Paşinyan iqtidarının davam edən bu siyasi oyunbazlığının başlıca səbəbi vaxt qazanıb ordusunu silahlandırmaq, müharibəyə hazırlaşmaqdır. Hakim partiyadan olan deputat Armen Xaçatryan çıxışlarında iddia edir ki, bir neçə ilə Ermənistanın "yüksək döyüş qabiliyyətinə malik, müasir ordusu" olacaq.

Amma bu xülyadır. Düzdür, silah-sursat gətirməyinə gətirirlər, kimlərsə göndərir. Bütün bunlar iki ölkə arasında, ümumiyyətlə, Cənubi Qafqazda yaranmış, sabitliyi pozmağa hesablanmış məkrli addımlardır.

Erməni xisləti yenə də ortadadır. Sülh gündəliyini bacardıqca gözdən salmaq, "Bakının günahı üzündən onun mümkünsüzlüyü" görüntüsünü dünyaya sırımaq lazımdır. Bundan ötrü ən ideal variant Azərbaycanın guya Ermənistana hücum etməyə hazırlaşması barədə yalançı tezisi körükləmək, ölkəmizi müharibə tərəfdarı qismində haqsız yerə hədəfə gətirməkdir. Ona görə də Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsində maraqlı olmayan bəzi dairələr "antisülh" mahiyyətli addımlarını davam etdirməkdə israrlıdırlar. Məsələn, heç bir siyasi-ictimai mahiyyət daşımayan, sadəcə, regiona "nəzarət" üçün Ermənistana yerləşdirilən Aİ-nin "müşahidə missiyası" sərhəd bölgəmizə gələrək "fəaliyyətinin" nədən ibarət olduğunu fransız çılpaqlığı ilə ortaya qoydu. O da məlum oldu ki, bu qrup monitorinq missiyası mahiyyətindən daha çox Ermənistanı sülhdən uzaqlaşdırmaq üçün təzyiq vasitəsi kimi istifadə olunur. "Binokl diplomatiyası"nı özünün ən vacib hərəkət mexanizminə "çevirdiyini" düşünən qrup, hətta ara-sıra xarici ölkələrin Ermənistandakı səfirlərini, İrəvanda qonaq olan, amma sülh məsələsinə dəxli olmayan xarici nümayəndələri şərti sərhədə gətirərək, onların Azərbaycan torpaqlarına "boylanan yerdə" şəkillərini çəkir paylaşır. Bunu həm də özünün missiyası sayır.

Bir neçə gün öncə Ermənistandan Azərbaycana keçmək istəyən Çexiya vətəndaşı saxlanılmışdı. Bununla bağlı bildirilmişdi ki, Çexiya vətəndaşı Ermənistan tərəfdə minalanmış zonadan keçərək Azərbaycan ərazisinə daxil olub. Eyni zamanda, son vaxtlar bir sıra Avropa ölkələrinin, xüsusən də Fransanın nümayəndələri Ermənistan-Azərbaycan sərhədində kifayət qədər tez-tez görünürlər. Fevralın 2-də Fransa Milli Jandarmeriyasının briqada generalı Uilyam De Meyer Avropa İttifaqının Ermənistandakı mülki missiyasının yerləşdiyi yerə baş çəkib, orada sərhəddəki vəziyyətlə tanış olub. Bir sözlə, missiya kim gəldi əlinə bir durbin verib Azərbaycana tərəf boylandırır...

Yeri gəlmişkən, fevralın 12-də Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasındakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb. Ona Aİ-nin Ermənistandakı Monitorinq Missiyasının fəaliyyətinin ciddi narahatlıq doğurduğu bir daha deyilib. Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə töhfə verən "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb. "Binokl diplomatiyası"nın bu fəallığının sərhəd boyunca indiyədək görülməmiş sakitliyin hökm sürdüyü, habelə həm Azərbaycanın, həm də Ermənistanın ciddi etimad quruculuğu tədbirləri həyata keçirdiyi bir zamanda müşahidə olunmasının xüsusilə narahatlıq doğurduğu Aİ səfirinin diqqətinə çatdırılıb.

Bəli, Qərbin demək olar ki, əksər siyasi gedişləri kimi, Ermənistandan Azərbaycana tərəf tuşladığı "binokl"un da siyasi mahiyyəti iflasa məhkumdur. Binoklun əsl funksiyası "uzağı yaxın etmək"dirsə, Qərbin İrəvandan Bakıya istiqamətlənən və əlində tərs tutduğu binokl "yaxını daha da uzaq edir". Dildə "sülhün vacibliyindən" danışan Qərb bu tərs binokllarla sülhə mane olur. Qərb diplomatiyasının "binokl seyri" sabitlikdən çox qarşıdurmaya, Hayastanı silahlandırmağa xidmət edir. Ancaq ara qarışdırmağa çalışanlar niyyətlərinə nail ola bilmirlər və bundan sonra da Ermənistanla birlikdə hansı havaya oynamaqlarından asılı olmayaraq, yenə də yerlərində otuzdurulacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 14 fevral, № 33.- S.8.